*Yenə odsuz-ocaqsız yandı xalqımızın ürəyi, ataların-anaların sinəsi. İgid ərənlərimiz torpaqlarımızın müqəddəsliyi uğrunda canlarından keçdi. Analar-atalar oğul yerinə tabutlarına sarılmış üçrəngli bayrağa sığal çəkdilər. Bu acının, bu can yanğısının sadəcə bir təsəllisi oldu: "Vətən sağ olsun!" Yüzillərdir belədir, nəyisə dəyişdirmək mümkün deyil, amansız düşmən qapına dayandıqca, damarlarına qədər sənə yaxın olduqca savaşmağa məcbursan. İtirdiyimiz hər oğulla bərabər biz də ölürük, canımız yanır, nəfəsimiz tükənir. Amma yenə də təsəllimiz köməyə gəlir: "Biz bir ölür, min dirilirik". Beləcə, dayanırıq bu təsəlliyə söykənərək.*

# Oğul Vətən üçündür



Bu il sentyabrın 12-də gecədən başlayaraq erməni silahlı qüvvələrinin Azərbaycanın dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatının qarşısını alarkən övladlarımız bütün sevdiklərini geridə qoyaraq, Vətən sevgisinə təslim oldular. Zəhmətlə, min bir əziyyətlə, böyük arzularla böyüdüb boya-başa çatdırdıqları, gələcəyinə ümid bəslədikləri gənc övladlarını çiyinlərində son ünvana daşıdı atalar-analar. Oğul yerinə bayrağı öpüb, göz yaşları içində "Vətən sağ olsun" dedilər. Belə ata-analardan biri də Rəhimov Təbrizin valideynləridir. Ağ günlərini qara edən oğul dərdi bir ömür boyu canlarını yandırsa da, dimdik ayaq üstədilər, dərdə təslim olmurlar. Oğul Vətən üçündür, deyirlər. Rəhim ata ilə Reyhan ana bundan sonra nəvələrinə Təbriz əmisinin qəhrəmanlıqlarından danışacaq, nağıl qəhrəmanı kimi bəhs edəcəklər, Təbrizi bundan sonra belə yaşadacaqlar.

Rəhimov Təbriz Rəhim oğlu 11 avqust 1990-cı ildə Yevlax rayonunun Gülövşə kəndində anadan olmuşdu. Rəhimlə Reyhanın sonbeşikləri, göz nurları idi. Üç oğulun sonuncusuydu. Təbrizin böyük qardaşı Pərviz 38 yaşındadır, ailəlidir. Pərvin də 36 yaşındadır, o da ailəlidir. Növbə 32 yaşlı Təbrizin idi. Onun da vaxtıydı, önümüzdəki ayların, günlərin birində sevib-seçdiyi bir gözəllə evlənəcək, ailə sahibi olacaqdı. Ata-anası ümidlə o günü gözləyirdi. Nə bilsinlər ki, başqa bir sevda var ki, ondan keçilmir. Böyük mütəfəkkir şairimiz Hüseyn Cavidin bir fikrini xatırladım: "Azadlıq, öylə nazlı afət ki, qan tökülməyincə üzə gülməz o işvəkar". Təbrizin sevdalısı daha işvəkardı, qurban istəyirdi, həm də Təbrizi...



Təbriz Gülövşə kənd orta məktəbini bitirdikdən sonra 2008-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Xidməti borcunu Qazax rayonunda düşmənlə təmas xəttində yerinə yetirmişdi. Anası Reyhan xanım danışır ki, Təbriz hərbi xidmətdə olanda atası ilə yanına getmişdik. Hava dumanlı olduğundan yolu səhv salmışdıq. Dumanda irəliləyərkən sinəmə qırmızı işıq düşdüyünü gördüm, düşmənlər uzaqda deyildi. Yavaşca geriyə çəkilib istiqamətimizi dəyişdik. O gün düşmənin gülləsindən qurtara bildik, amma qədd-qamətli balam, qoçaq balam namərd gülləsindən qurtara bilmədi. Kaş mən öləydim, balam yaşayaydı, Təbrizim yaşayaydı.

Hərbi xidmət zamanı fərqləndiyinə görə komandirliyi tərəfindən təşəkkürnaməyə layiq görülən gənc əsgər Təbriz idmanın cüdo növü ilə məşğul olurdu. Bir çox yarışlarda iştirak etmişdi. Xidmətini başa vurduqdan sonra kənddə yardımçı təsərrüfatda çalışmışdı. Əlindən hər iş gəlirdi. Bir müddət Rusiyada da işləyib. Ən son Bakıda ev təmir-tikinti işlərində çalışıb. Ancaq torpaqlarımızın düşmən tapdağında olması onu heç zaman rahat buraxmayıb.

Əmisi I Qarabağ müharibəsi iştirakçısı Qaşqay kişi deyir ki, uşaqlıqdan çox vətənpərvər, ağıllı, qanacaqlı idi, kənddə hamı onu xeyirxah, cəsur, mərd bir gənc kimi tanıyırdı.

2020-ci ilin sentyabrında düşmən təxribatına cavab olaraq başlanan Vətən müharibəsi zamanı Təbriz Bakıdan işlərini atıb kəndə qayıdıb, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə gedərək könüllü döyüşlərə qatılmaq üçün müraciət edir. Anası onu göz yaşları ilə yola salmışdı. Əvvəlcə Gəncədəki hərbi hissəyə göndərilir. Bir neçə gündən sonra Gəncədən zəng edib, anasına etiraz edir: "Sevin ana, göz yaşların mənim müharibəyə gedib vuruşmaq arzumu yarıda qoydu". Dinə çox bağlı Təbrizin arzusu Şuşanın işğaldan azad edilməsində iştirak edib, Şuşa məscidində namaz qılmaq imiş. Reyhan xanım balası haqqında bu sözləri danışdıqca hönkür-hönkür ağlayır, ürəyinin yanğısını göz yaşlarıyla canından çıxarır. Onunla danışdıqca fikirləşirdim ki, sən tək deyilsən Reyhan xanım, şəhid analarının hamısı qan ağlayır. Yox, təkcə şəhid anaları deyil, bütün analar qan ağlayır. Deyirlər zirvədən sonra eniş başlayır. Şəhidlik enişi olmayan tək zirvədir. Reyhan ananın Təbrizi də o müqəddəs zirvədə qərar tutub. Anaya ürək-dirək verməyə çalışıram. Sənin bundan sonra müqəddəs adın var: Şəhid Anası,- deyirəm.

44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra öz istəyi ilə Təbrizi Gəncədən Goranboyda yerləşən hərbi hissəyə göndərirlər. O, burada müddətdən artıq hərbi qulluqçu kimi qalıb xidmət etmək istədiyini bildirsə də yaşına görə qəbul etmirlər. Kəndə qayıtdıqdan qısa müddət sonra Sərhəd Qoşunlarının Yevlaxda yerləşən "N" saylı hərbi hissəsinə müraciət edir və qəbul olunur. 3 ay burada kurs keçdikdən sonra müddətdən artıq həqiqi hərbi qulluqçu kimi Xızı rayonunda yerləşən hərbi hissəyə təyinat alır. Xızıda daha 3 ay kurs keçərək xüsusi təyinatlı kimi fəaliyyətini davam etdirir. Bir çox bölgələrə döyüş tapşırığı alan Təbriz ən son Zəngilan rayonunda olur.

Həmin gün baş verən düşmən təxribatının qarşısını almaq üçün döyüş tapşırığı alırlar. Kəşfiyyat zamanı çətin relyefi olan ərazidə xüsusi təyinatlı komanda düşmən mövqeyini aşkar edir. 12 sentyabr 2022-ci ildə öndə gedən Təbrizə və bir döyüş yoldaşına düşmənin sığınacağını qumbaraatanla vurmaq tapşırığı verilir. Təbriz sərrast atəşlə hədəfi məhv edir. Ancaq ürəyi soyumur, yanındakı döyüş yoldaşı ilə əllərindəki avtomatla düşmən üzərinə hücum edirlər. Düşmən səngərdəki sığınacaqda, onlar isə açıq ərazidə idilər. İçindəki Vətən sevdası onu rahat buraxmır, ölümü düşünmədən düşmənin üstünə gedir. Təbrizlə döyüş yoldaşı xeyli düşməni məhv etsələr də, heyif ki, özləri də düşmən gülləsinə tuş gəlirlər.

Komandirin atasına danışdığına görə, onlar 4 saat neytral zonada atəş altında qalıblar. Nə qədər cəhd etsələr də onları götürmək mümkün olmayıb. Düşmən tam zərərsizləşdirildikdən sonra Təbrizin və döyüş dostunun nəşini götürmək mümkün olub. Təbrizlə döyüş dostunun vurduqları sığınacaqda 17 düşmən cəsədi aşkarlanıb. Anası danışır ki, həmişə deyirdi, ana, sən bilirsən mən harada işləyirəm. Deməli hər şeyə hazır olmalısan. Bilirsən ki, hər şeydən öndə Vətən gəlir. "Balamın arzuları çox idi. Həmişə qardaşlarının uşaqlarını, dostlarının uşaqlarını sevərdi. Özü də nəhayət evlənmək eşqinə düşmüşdü. Balam arzusuna çatmadı".

Rəhimovların gözəl ailəsi var. Yüksək mədəniyyət, nizam-intizam, vətənpərvərlik, böyük-kiçiyə hörmət ilk baxışdan diqqətimi cəlb elədi. Baxdığım gözlərdəki kədərdən bəhs etməyə acizəm. Bu qədər sonsuz kədərin içində bütün şəhid ailələrinə məxsus qürur, əyilməzlik, mərdlik var idi.

İçimdən bunlar keçdi ayrılarkən, biz Təbrizə həsrət, Təbriz bizə. Nə fərqi var ya şəhidi olsun, ya şəhəri. Təbrizlər bizi Təbriz sevdamıza qovuşdurmaq üçün əbədi yaşayacaqlar. Məkanın və zamanın fərqi yoxdur!

***Əminə YUSİFQIZI,***
***Respublikanın Əməkdar jurnalisti***